BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2013

**UOT 82-3. 47.82.31**

# SƏNƏDLİLİK VƏ BƏDİİ HƏQİQƏT

**S.Ş.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***Samiquliyeva@mail.ru***

*Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə zəngin yaradıcılıq yolu keçmişdir. Ədəbiyyata xırda hekayələrlə gələn yazıçı, sonralar daha iri həcmli əsərləri ilə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir.*

*Məqalədə Əzizə Cəfərzadənin tarixi mövzuda yazdığı romanlarından, povestlərindən söhbət açılır.*

**Açar sözlər:** hekayə, tarixi mövzu, cəmiyyət, məşhur, qürur

Min illik tarixə malik olan Azərbaycan ədəbiyyatında ilk qadın sənətkarlar 800 il bundan əvvəl tarix və ədəbiyyat səhnəsinə çıxmışlar. Böyük Azərbaycan şairi M.Gəncəvinin adı ilə bağlı olan bu ədəbi hərəkat özünə layiqli yer tutmuşdur.

Bu zəngin ədəbi ənənələr üzərində formalaşan Azərbaycan qadını ədəbiyyatı böyük şairlər yetirmişdir. Nəsr sahəsində bu ənənələri uğurla davam və inkişaf etdirən ədiblərdən biri də Əzizə xanım Cəfərzadə olmuşdur.

Əzizə Cəfərzadə ədəbiyyata 1937-ci ildə "Əzrayıl" adlı hekayəsi ilə gəlmişdir. Bundan sonra arabir mətbuat səhifələrində xırda hekayələr ilə çıxış etsə də, onun bədii yaradıcılıq dövrü əsasən 60-cı illərin sonundan başlamışdır. Yazıçının bir-birinin ardınca müxtəlif vaxtlarda dərc etdirdiyi "Natəvan haqqında hekayələr", "Qızımın hekayələri", "Sahibsiz ev", "Qızıl sahilə səyahət" və "Əllərini mənə ver" kimi neçə-neçə kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Onun ilk hekayələrindəki inamlı addımları sonralar özünü doğrultmuş, Əzizə xanım oxucularını daha kamil əsərləri olan povestləri və geniş epik planda yazılan tarixi romanları ilə sevindirmişdir.

Yazıçının bu dövr yaradıcılığı üçün xas olan keyfiyyətlərdən biri məişət mövzusundan alınmış epizodlardan tədricən tarixi mövzuya keçmək təşəbbüsündədir.

Əgər "Qızımın hekayələri" bu günü təsvir və tərənnüm edirsə "Anamın nağılları" daha çox tarixidir, keçmişdir, konkret tarixi hadisələrdir. Düzdür, bu hadisələrdə görkəmli tarixi şəxsiyyətlər iştirak etmir, ancaq hər bir fərdin öz tarixi məgər taleyüklü deyilmi və bütövlükdə, Vətən tarixi ayrı-ayrı fərdlərin

tarixinin məcmuəsi deyilmi? Bu silsiləyə “Yumurta əhvalatları”, “İldə bir yalan danışan”, “Yaxşı qonşu”, “Ponzabığın nağılı” hekayələrini daxil etmək olar.

Məlum olduğu kimi, Əzizə Cəfərzadə tarixi roman janrına doğru getdiyi yolu birnəfəsə deyil, addım-addım qət etmişdir. Bu yoldakı növbəti addımlardan biri kimi tarixi hadisələrlə səsləşən və müəyyən dərəcədə sənədli xarakter daşıyan, qaynaqlara söykənən hekayələrin qələmə alınmasını nəzərdən keçirmək olar. Yazıçının “Natəvan haqqında hekayələr” silsiləsi məhz bu baxımdan onun yaradıcılığının ümumi axarında və təkamülündə əhəmiyyət kəsb etməkdədir (1, 23).

Bu da xeyli dərəcədə Ə.Cəfərzadənin bir yazıçı-tədqiqatçı kimi günü arxivlərdə keçən zəhmətkeş arayıcı olması ilə bağlıdır. Məhz tapdığı qiymətli tarixi sənədlərə söykənən yazıçı bədii həqiqətlə tarixi həqiqətin üzvü vəhdətinə nail olmuşdur.

Xurşud Banu Natəvan Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində özünəməxsus yeri və sanbalı olan sənətkarlardandır. Onun təkraredilməz sənət yolunu işıqlandırmağa çalışan Əzizə Cəfərzadə təkcə bir yazıçı-alim kimi deyil, həm də incə qəlbli bir qadın kimi bu işdə üçqat uğura nail olmuşdur. Bu hekayələrin bəzisində məşhur fransız yazıçısı Dumanın “Qafqaz səfəri” əsəri ilkin qaynaq rolunu oynasa da müəllif süjetə tam sərbəst yanaşmış, Dumanın təsvir və hadisələrə münasibətinin əsiri olmamışdır. Epizodun təqdimində daha çox ekzotika axtaran fransız yazıçısından fərqli olaraq, Əzizə Cəfərzadə söykəndiyi qaynağa bir vətənpərvər azərbaycanlı qadın yazıçısı kimi münasibət bəsləmiş, daha çox milli qürur duyduğu hadisə və epizodları qabartmağa çalışmışdır.

Yeri gəlmişkən, Əzizə Cəfərzadə sənətinin bir xüsusiyyətini də qeyd etmək istərdim ki, o da tarixə, tarixi hadisələrə təkcə bir tarix, keçmiş kimi deyil, həm də müasirlik, indiki zaman kimi baxmasıdır.

Görkəmli Azərbaycan ədəbiyyatşünası və tənqidçisi Məmməd Arif ədəbiyyatımızda tarixi mövzunun işlənməsindən bəhs edərkən yazırdı: “...yazıçı yalnız ayrı-ayrı faktları, meylləri deyil, ictimai həyatda baş verən mühüm dəyişikləri, onun qanunauyğunluğunu, ictimai inkişafın perspektivini də dərk etməlidir. Bunlarsız yazıçı cəmiyyətdə baş verən hadisələri düzgün əks etdirə bilməz” (2, 36).

Əzizə Cəfərzadənin tarixi romana keçdiyi inkişaf yolunun növbəti mərhələsi kimi onun İkinci dünya savaşı mövzusunda yazdığı hekayələri daha da maraqlıdır.

“Bu silsilədə konkret insan taleləri əsasında haradasa uzaqlarda cərəyan edən dəhşətli hadisələrin əks-sədası verilmişdir” (1, 14).

Daha sonralar yazıçı Əzizə Cəfərzadə oxucularını daha kamil əsərləri olan povestləri və geniş epik planda yazılan tarixi romanları ilə sevindirmişdir. Bu baxımdan yazıçının Şirvanda yaşayıb-yaratmış Azərbaycanın görkəmli sənətkarı haqqında qələmə alınan trilogiyası, xüsusilə diqqətəlayiqdir.

Trilogiyanın “Vətənə qayıt” adlı birinci hissəsi XVII əsrin sonu – XVIII əsrin əvvəllərində yazıb-yaratmış Nicat Şirvaninin kəşməkəşli həyatından bəhs

edir. “Aləmdə səsim var mənim” Seyid Əzim Şirvaninin, “Yad et məni” adlı ikinci hissədə isə Abbas Səhhətin həyatı fonunda baş verən mühüm hadisələr qələmə alınmışdır.

Əzizə Cəfərzadə tarixi şəxsiyyətlərin həyatına müraciət etsə də, onun trilogiyası bədii tərcümeyi-hal xarakterində yazılmamışdır. Yalnız hər üç sənətkarın həyat və fəaliyyəti Əzizə Cəfərzadə üçün bədii vasitə rolu oynamış, o bu görkəmli adamların həyatı ətrafında Azərbaycan xalqının mübarizələrlə dolu tarixinin ən mühüm dövrlərini təsvir etmişdir. Lakin məlum olduğu kimi, bu çox böyük və gərgin əmək sayəsində əmələ gəlmişdir. Xalqın bədii təfəkkürünə yaxından bələdlik yazıçıya kömək etmiş və buna görə də, “Vətənə qayıt” əsərində hadisələrin cərəyan etdiyi tarixi dövr haqqında oxucuda bitkin təsəvvür yarada bilmişdir. “Bu baxımdan romanın başlanğıcı olan “Beş qız idik...” hekayəsi xüsusilə nəzəri cəlb edir. Təsvir edilən hadisə xalqın faciəvi həyatını öyrənmək üçün oxucunu keçmişə aparır”.

Əsil ismət timsalı olan Sürəyya xanımın gözəl qızı Nisəbəyimin yad ellərə düşməkdənsə övladı ilə birlikdə od içində yanması xalqın sonsuz qəzəbindən xəbər verir.

Romanda təsvir olunan hadisələr əsasən qədim Şamaxıda cərəyan edir. XVIII əsrdə artıq böyük ticarət mərkəzi olan Şamaxı həm də elm, mədəniyyət və memarlıq sahəsində böyük müvəffəqiyyət qazanmışdır. Sonralar Nadir şahın Şirvana hücumu Şamaxını bərbad vəziyyətə salmışdır. Bir müddət istiqlaliyyət qazana bilməyən Şirvan Türkiyə soltanlığının əlinə keçmiş, beləliklə, Zaqafqaziyada İran və Türkiyəyə qarşı münasibətinin kəskinləşməsi Rusiyaya tərəf meylin yaranmasına səbəb olmuşdur. Belə ziddiyyətli bir dövrdə Şirvanda yaşayıb-yaradan Nicat Şirvani, Zülali, Ağa Məsib Şirvani, Raci Şirvanlı, Rəşid və digər şairlər özlərini bu mübarizələrə həsr etmiş, hamısı vətəndən didərgin düşmüşdür.

Əsərin süjet xətti dediyimiz tarixi hadisələrə uyğun inkişaf etsə də, bəzi tarixi şəxsiyyətlərin adları olduğu kimi saxlanılsa da, müəllimin hadisələrə qabarıq münasibəti aydın nəzərə çarpır.

Əslində belə romanda bu iki cəhət gözlənilmiş, biri digərini tamamlamışdır. Xüsusən, Nicat Şirvaninin qəzəllərinin təsiri, Maro əhvalatı, onların məhəbbətlərinə inamı daha da gücləndirmişdir.

Əsərdə təsvir edilən Əsgər bəy və Şəbnəm yazıçı tərəfindən çox xarakterik təsvir edilmişdir. Feodalizmin nümayəndələri olan bu bacı-qardaşın xarakterləri psixoloji vəziyyətləri ilə qarşılaşdırılmışdır. Belə halda oxucu Şəbnəm bəyə qarşı rəğbət hissi ilə yanaşır.

Müəllif Əsgər bəyin də ziddiyyətli xarakterini çox böyük ustalıqla qələmə almışdır. Zahirdə Türkiyə soltanının Şamaxıdakı hakimi Ehsan bəyin ən yaxın adamı olan Əsgər bəy daxilən müstəqil hakimiyyətə can atır. Nicatın qardaşları Qələmşah və Ələmşahın rəhbərliyi ilə baş verən el üsyanına qoşulur və son halda üsyana xəyanət edir. Onun xarakterindəki bu ziddiyyətlər yazıçı tərəfindən məharətlə işlənmişdir.

Filologiya elmləri doktoru Xalid Əlimirzəyev "Şirvan" trilogiyasının qəhrəmanları haqqında deyir: "romanın əsas qəhrəmanları xalqımızın yaxşı tanıdığı, sevdiyi Nicat Şirvani, Seyid Əzim Şirvani, Abbas Səhhət, Sabir kimi böyük sənətkarlar, ölməz şəxsiyyətlərdir. Yazıçı bu qəhrəmanların xarakterlərini, dünyagörüşlərini, fərdi ictimai simalarını birtərəfli açmaq, tamamlamaq üçün onların həyam və fəaliyyətini geniş planda götürmüş, dövrlərinin ən vacib, ədəbi, ictimai, mədəni hadisələri fonunda təsvir etmişdir" (3, 6). Müəllifin öz qəhrəmanlarına olan dərin ehtiramı, məhəbbəti romanları oxuduqca bizim də qəlbimizə yol salır, ürəklərimizi isidir, gözlərimiz önündə sevimli sənətkarlarımızın parlaq obrazları canlanır, reallaşır.

Doğrudan da, bu romanı oxuduqca bizdə də Əzizə xanımın şairanə qəlbinə xüsusi bir rəğbət hissi oyanır. Duyuruq ki, onun sinəsi xalqımızın söz xəzinəsinin gözəl inciləri ilə doluymuş. Trilogiya oxucunu belə bir nəticəyə gətirir ki, Əzizə Cəfərzadə Şirvanın keçmiş adət-ənənələrinə, etnik xüsusiyyətlərinə, toy və mərasimlərinə son dərəcə dərindən bələd imiş. Bu cəhət romanın bədii dəyərini bir qədər də artırmış və onun təsirini daha da gücləndirmişdir.

Yazıçı görkəmli bir hekayəçi kimi tanındıqdan sonra qələmini povestdə sınamağa başladı. Bəri başdan deyək ki, Əzizə Cəfərzadənin 60-cı illərin sonuna təsadüf edən povest yaradıcılığında o dövrün aparıcı üslublarından olan lirik-psixoloji üslubun, xüsusi halda İlyas Əfəndiyev yaradıcılığının böyük təsiri olmuşdur. Onun ilk povestinin adı da bu fikri təsdiq etməkdədir. "Əllərini mənə ver..." lirik-psixoloji üslub qəhrəmanların davranışında açıq-aşkar sezilməkdədir. Bu, elə bir dövr idi ki, kommunist və sovet dövrünün bütün vədləri boşa çıxmış, sistemin inkişaf perspektivləri özünü tükətmişdi. Lakin yenə də romantik təxəyyüllü şair və yazıçılar sistemin öz potensialından istifadə edəcəyini, "utopik marksistlər" tərəfindən müəyyən edilmiş qanun-qaydalara əməl ediləcəyini və ədalətli bir həftənin meydana gələcəyini hələ də güman edirdilər" (4, 36). Elə bu cür romantik-utopik arzuların təsiri ilə də nəsrdə həyatdan uzaq olsa da, gözəl səslənən romantik obrazlar yaranırdı.

Sanki ilk baxışdan sosializm və kolxoz quruculuğunun ilk illərinə qayıdırıq: düşmənlər amansızlıqla barışmaz mübarizə aparırlar. Lakin əslində bu belə deyildi: sosializmin son və qəti təntənəsi üçün ədəbiyyatda kəskin və gərgin süjetli əsərlərə ehtiyac hiss olunurdu. Elə yazıçı Mehdi Hüseynin "Alov" pyesini yada salmaq kifayətdir. Burada da sanki barışmaz ictimai qüvvələr bir-biri ilə çarpışmaqdadır. Ancaq heç bir barışmaz qüvvə yoxdur, sadəcə olaraq, öz qüvvəsinə arxayın olan sosializm ən xırda müqavimətlə belə barışmaq istəmir.

Əzizə Cəfərzadə yaradıcılığında həmin partiya direktivinin bir sxem şəklində işləndiyini görmürük. Üstəlik bu cəhənnəmin bütün təbəqələrindən keçib gəlmiş və öz ilk hekayələr toplusunun əksinə olaraq yanmamış, əriməmiş, əyilməmiş bir yazıçı olmaqla direktivlərin özünə belə meydan oxuyacaq bir səviyyədə olan bir yazıçının direktivlərə münasibəti və baxışı idi. Məhz buna görədir ki, Cəfər Cabbarlı situasiyasına düşmüş qəhrəmanda artıq Cəfər

sxematikliyi – sosializm düşməninin məğlubiyyətinin labüdlüyü nəzərə çarpmır. Cəfər dövrü artıq keçmişdi və Cəfərzadə dövrü başlamışdı.

Cəfərzadə dövrü isə insandan daha artıq sərbəstlik tələb edirdi. Elə buna görədir ki, "Əllərini mənə ver" povestinin qəhrəmanı əsas həyat amalını tikintiyə rəhbərlikdə deyil, ailə xoşbəxtliyində görür və bu da Cəfər dövrü ilə Cəfərzadə dövrünün əsas aparıcı fərqlərini təşkil etməkdədir.

Əzizə Cəfərzadə bir çox başqa sənətkarlar kimi zaman-zaman öz sevimli obrazlarına qayıdan bir yazıçıdır. Povestlərinin birində ("Səməndər quşu") o bütün bu motivlərə bir daha qayıdır. Əsəri oxuduqca Əzizə Cəfərzadənin öz üslubuna sadiq qaldığının şahidi oluruq. Burada da gerçəklik tarixə və nağıla qarışır "Anamın nağılları", "Seyfi əminin nağılları"nda öz əksini tapır.

Povest 20-30-cu illər Bakısını əhatə etsə də, burada bütöv bir zaman kəsiyində Azərbaycanı görmək mümkündür. Çünki povestdəki qəhrəmanlar bizim azərbaycanlı psixologiyasına o qədər yaxındır ki, müəllifin əsərdə məhz hansı dövrün hadisələrini təsvir etdiyini ayırd etmək mümkün deyildir. Əsərdə xüsusilə, tarix boyu xalqımız üçün aktual olmuş məzlumluq – yəni zülmə dözmək, üsyana qalxmamaq və təfəkkür fəlsəfəsi ilə yaşamaq problemi qoyulur və təfəkkür fəlsəfəsinin əksinə həll edilir.

Tarixi mövzunun epizodik işlənməsi artıq Əzizə Cəfərzadə yaradıcılığı üçün keçilmiş mərhələyə çevrilir. "Hun dağı", "Xoş gördük, səyyah", "Cəlaliyyə" kimi povestlərdə bu mövzunun geniş bədii-tarixi planda işlənməsinin şahidi oluruq. "Hun dağı" povesti sırf tarixi mövzuda yazılmamışdı. Burada tarixi mövzu ilə folklor mövzusunun, gerçəkliklə əfsanənin sintezi verilmişdir. Povestdə yazıçının orijinal üsulunu da qeyd etməmək olmaz. Məğlub olmuş xeyir qüvvələr şər qüvvələr içərisində qalıb, onlara tabe olmaq istəmirlər. Turqut Dədənin məsləhəti ilə onlar naqis insanları tərk edərək yeni, daha işıqlı bir cəmiyyət yaratmaq üçün qürbətə getməyi təklif edirlər. Bu fikir indinin özündə də böyük aktuallığa malik olaraq qalır. Elə yaxın keçmişimizi xatırlayaq: səriştəsiz "başçılarımız"ın yarıtmaz daxili və xarici siyasəti nəticəsində nə qədər vətən oğulları yurdlarından didərgin düşdülər, ancaq "palaza bürünüb el ilə sürünmədilər".

Povestin uğurları barədə professor V.Quliyev "Nəsrimiz və tariximiz" adlı məqaləsində yazır: "Hun dağı" povestində mifoloji elementlər güclüdür. əsərin bir məziyyətini – onun bədii dil baxımından uğurlu olduğunu qeyd etmək istərdik. Məhz həmin məziyyət sayəsində müasir dövrümüzdən minilliklərlə ayrılan epoxanın ruhu, nəfəsi duyulur" (5, 19).

Müəllifin yaradıcılığında tənqid tərəfindən müəyyən hücumlara məruz qalmış "Cəlaliyyə" povestinin öz yeri, öz mövqeyi vardır. "Cəlaliyyə" povestinin süjet xətti XII əsrdə Naxçıvanda hökmranlıq etmiş Cəlaliyyə Xatunun (Cəlaliyyə Xatun Atabəy Məhəmməd Cahan Pəhləvanın qızı Məhsəti Gəncəvinin nəvəsidir) həyatı və yaşadığı dövrdə baş verən ictimai-siyasi hadisələrlə bağlıdır. XIX əsrin ilk otuz illərində Orta Asiya, Yaxın Şərq və başqa yerlərə səyahət etmiş coğrafiyaşünas alim Zeynalabdin Şirvaninin uşaqlıq illərindən danışan "Xoş gördük, səyyah" povesti rəğbətlə qarşılanmışdır.

Ədəbiyyatımızda M.C.Ordubadinin adı ilə bağlı olan tarixi roman janrı Əzizə Cəfərzadənin yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Bu mərhələnin bədii məhsulları olan romanların bir qisminə roman-bioqrafiya da demək mümkündür. Bu termin xüsusən "Şirvan" trilogiyasına tətbiqən özünü daha çox doğruldur.

"Vətənə qayıt", "Aləmdə səsim var mənim", "Yad et məni" - bu üç romanın vahid "Şirvan adı altında birləşməsi böyük Nizaminin beş poemasının "Xəmsə" adı altında birləşməsindən bir qədər fərqlənsə də, burada müəyyən analogiya aparmaq olar. Ümumiyyətlə, Əzizə Cəfərzadə yaradıcılığını klassik irsə yaxınlaşdıran cəhət tarixilik və elmilik, klassik ədəbiyyatın bədii əksi ilə deyil, həm də xarakteri, ümumi istiqaməti, poetik üslubun oxşar cizgiləri ilə şərtlənir. Bu baxımdan Əzizə Cəfərzadə nəsri klassik ənənədən bəhrələnmənin uğurlu fikri sayıla bilər.

Əlbəttə, tarixi mövzuya müraciət etmək heç də tərcümeyi-hal xarakteri daşıyan əsərin yazılması demək deyildir. İstər Nicat Şirvani, istər Seyid Əzim, istərsə də Abbas Səhhət Vahid Azərbaycan ziyalısının müxtəlif dövrlərdə yaşamış üç poemasıdır.

Doğrudan da, sənətin sirləri əlçatmazdır.

**ƏDƏBİYYAT**


1. Əliyeva İ. El anası Əzizə Cəfərzadə. Bakı: Elm, 2001, 64 s.
2. Arif M. Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı: Elm, 1967, 608 s.
3. Əlimirzəyev X. Tarixilik və bədiilik. "Ədəbiyyat və incəsənət" qəz., 1995, 17 aprel.
4. Əliyeva İ. "Vətənə qayıt" romanında tarixi şəxsiyyətlər // Bakı Universitetinin xəbərləri, 2000, №2, 90 s.
5. Quliyev V. Nəsrimiz və tariximiz // Azərbaycan jurn. 1984, №4, 204 s.
6. Xudubəyli M. Əzizə Cəfərzadə yaradıcılığında tarixi şəxsiyyətlərin tərənnümü. "Kredo" qəz., 2010, 1 may.


**ПРОФЕССИОНАЛИЗМ И ЛИТЕРАТУРНАЯ ПРАВДИВОСТЬ**


**С.Ш.ГУЛИЕВА**


**РЕЗЮМЕ**


В настоящей статье повествуется о писательнице Азизе Джафарзаде, имеющей выдающиеся заслугу в формировании литературно-художественной и национально-эстетической мысли в Азербайджане.

Глубокий гумманизм, философские задумки, реализм и психологическая глубина произведений талантливой писательницы Азизы Джафарзаде, привлекли к себе внимание литературной общественности и широкой массы читателей.

В творчестве Азизы Джафарзаде особое место занимают рассказы, повести и романы, а также произведения, написанные на исторические темы.



**Ключевые слова:** рассказ, историческая тема, общество, знаменитый, гордость

## DOCUMENTATION AND ARTISTIC REALITY

**S.Sh.GULIYEVA**

**SUMMARY**

The article deals with Aziza Jafarzadeh who has important services in the formation of literary-artistic and national-aesthetical sense in Azerbaijan.

The originality of the talent of Aziza Jafarzadeh, her different style of writing, deep humanism in her works, philosophical way, realism and psychological depth, drew the attention of a large mass of readers and literary-scientific public.

She is the author of novels, tales and stories of deep meaning dedicated to the love for God, self -actualization and moral perfection which make the people think deeply. She wrote a lot about woman's freedom/ her works call the people for moral ethical perfection.

**Key words:** story, historical themes, society, famous, pride